AZERBAIJAN
BRITISH COLLEGE
EXPLORE TO ACHIEVE

# Equity, Diversity & Inclusion (EDI) Policy

Revised December 2022

sync24

## Introduction

Like the Council of British International Schools (COBIS) and the Council of International Schools (CIS), the ABC is committed to promoting equity, diversity and inclusions (EDI), both within our organisation and the community beyond that.

ABC promotes diversity in keeping with our countries customs and laws and act in accordance with the Constitution, which is the supreme law of the Republic of Azerbaijan. The constitution (pt. 3, article 25), outlines that the state guarantees equality of rights and freedoms for everyone, regardless of race, ethnicity, religion, language, gender, origin, property status, service position, belief, affiliation to political parties, trade unions and other public associations.

Addressing discrimination and racism, promoting equity, diversity and inclusion, requires not just policies and processes. It requires the creation of a culture where it is simply not acceptable. Over time, that is about the way in which we educate our young people both through a broad curriculum that reflects different perspectives from diverse societies across the world and through the use of assemblies, PSHE and strong pastoral care. At ABC it is fundamental we create a diverse, safe and respectful space for all. ABC is committed to being an inclusive school community and supporting our diverse population of learners and staff. In order to ensure everyone can thrive and meet their full potential, it is essential that inclusion and equity of opportunity be at the core of all the School's activities.

This policy applies equally to current and prospective members of the School community, including parents.

The School is committed to a zero tolerance policy in relation to less favourable treatment or discrimination. The **protected characteristic** are defined as **age, disability, gender, pregnancy and maternity, race, ethnicity, language, religion, political affiliation, property status, service position** and **origin**.

The School is committed to promoting and developing inclusion & equity of opportunity in all its functions and will seek to do this by:

- Communicating its commitment to equity and diversity to all members of its community;
- Ensuring all staff and learners are aware of the aims of this policy;
- Developing monitoring, evaluation and review mechanisms of school policies and procedures and decision-making;
- Demonstrating our zero tolerance attitude towards discrimination by taking all allegations seriously.

## Discrimination

Discrimination can take the following forms including:

**(a) Direct Discrimination** - This occurs where a person is treated less favourably than others because of their (or a family member's) actual or perceived protected characteristic.
**(b) Indirect Discrimination** - This occurs by applying a provision, criterion or practice, which disadvantages people on the grounds of a protected characteristic and which cannot be justified as a proportionate means of achieving a legitimate aim.
**(c) Victimisation** - This occurs where an individual has exercised their rights under equity legislation (or has indicated that they intend to do so) and is treated less favourably as a direct result. It applies equally to a person who is supporting (or indicates that they intend to support) another person who is exercising their rights under the legislation.

**(d) Harassment** – This is defined as unwanted conduct related to a relevant protected characteristic which has the purpose OR effect of violating an individual's dignity or creating a hostile, humiliating or offensive environment for that individual.
**(e) Disability Discrimination** - This includes direct and indirect discrimination, any unjustified less favourable treatment because of the effects of a disability, and failure to make reasonable adjustments to alleviate disadvantages caused by a disability.

## Aims and Values

The aims of this policy and the School's ethos as a whole are to:

- Eliminate unlawful discrimination on the grounds of any of the protected characteristics;
- Eliminate all bullying and unlawful discrimination on the basis that an individual has a learning difficulty or special educational need;
- Promote equity of opportunity for all members of the School community;
- Provide a secure environment in which all our children can thrive and achieve all of the principles of every child matters and keeping children safe in education;
- Provide a learning environment where all individuals feel valued and feel they have a sense of belonging;
- Prepare learners for life in a diverse, global and inclusive society in which everyone can take their place in the local, regional, national and international community;
- Include and value the contribution of all families to our understanding of equity and diversity;
- Provide and promote positive information about the diversity of Azerbaijan and our global society;
- Actively challenge discrimination and ensure that all members of the School community learn from these experiences;
- Embed inclusion through all our activities.

To achieve these aims we will:

- Involve, where reasonably practicable, all members of the School community in the development, review, evaluation, and impact assessment of all relevant improvement plans, policies and procedures;
- Publish and share school policies to the whole School community;
- Collect and analyse data (such as admissions data and examination results) to monitor any potential disadvantage amongst the learner body;
- Help to overcome any potential barriers to learning by providing for learners' diverse needs and learning styles including any learning support needs and/or disabilities a learner may have;
- Ensure the wider school curriculum promotes and celebrates equity and diversity;
- Operate a clear zero tolerance policy towards abusive or discriminatory behaviour;
- Work in partnership with families and the wider community to establish, promote and disseminate inclusive practice and help tackle discrimination.

## Admissions

The School treats every application for admission in a fair and equal way in accordance with this policy and the School's Admissions process. The School accepts applications from, and admits, learners irrespective of any protected characteristic.

Parents must inform the School when completing the registration form of any special circumstances (such as learning support needs) which may affect the child's ability to fully participate in the education provided by the School. The School will not offer a place to a child if, after reasonable adjustments have been considered, the School cannot adequately cater for and/or meet their needs.

The School affords all learners access to educational provision including all benefits, services and facilities irrespective of any protected characteristic subject to the School's obligations under Equity legislation and considerations of safety and welfare.

The School will not discriminate against a learner on the grounds of any protected characteristic by excluding them or subjecting them to any other detriment.

The School will seek to educate learners in a multicultural, anti-racist environment using the curriculum, assemblies, PSHE programme and external speakers to promote understanding and appreciation of other faiths, races and cultures.

The School recognises that discrimination may be, for example, direct, indirect or arising from disability whether or not it was intentional. Harassment and bullying in all its forms is unacceptable and will be dealt with in accordance with the School's Behaviour Policies.

The School will:

- Endeavour to meet the needs of all children and ensure that there is no unlawful discrimination on the grounds of any of the protected characteristics listed above;
- Ensure those learners with a statement of special educational needs (or Education Health and Care Plan) receive necessary educational and welfare support
- Monitor the admission and progress of learners from different backgrounds
- Challenge inappropriate discriminatory behaviour by learners, staff and parents
- Offer all learners access to all areas of the curriculum, including being able to participate in a full range of extracurricular activities
- Ensure that all staff are aware of their responsibilities promote equity of opportunity and are given appropriate training and support
- Work with parents and external agencies where appropriate to combat and prevent discrimination in School
- Ensure that it reviews, monitors and evaluates the effectiveness of inclusive practices.

The School is secular and inclusive, respecting the cultures, beliefs and traditions of Azerbaijan and welcomes and respects the rights and freedoms of individuals from other religions and faiths (or no religion or faith).

## Reasonable Adjustments

The School has an ongoing duty to make reasonable adjustments for learners with a disability to ensure they do not suffer a substantial disadvantage in comparison to non-disabled learners. The School will inform and consult with parents about what reasonable adjustments, if any, the School are able to make for their disabled child. The School will carefully consider any proposals for auxiliary aids and services in light of a learner's disability and, for example, the resources available to the School. The School has a duty to make reasonable adjustments (case by case considerations).

## Responsibilities

It is the **Board's** responsibility to:
(a) Ensure that staff act as role models of inclusive behaviour and practice;
(b) Ensure that the School complies with its equity obligations;
(c) Ensure that the School's policies & procedures are monitored in light of this policy and the School's wider equity obligations;
(d) Be involved, together with the Principal, in dealing with serious breaches of this policy.

## The Principal and Leadership Team

It is the Principal and delegated Leadership Teams responsibility to:
(a) Ensure effective implementation of this policy and its and procedures;
(b) Ensure that all staff are sufficiently aware and trained within equity & diversity;
(c) Actively challenge and take appropriate action in any cases of discriminatory practice within the School, be it by staff, learners, parents or visitors.

## All Staff

It is the responsibility of all staff to:

(a) Positively role model inclusive behaviour;
(b) Actively challenge any forms of discrimination, victimization, harassment or bullying;
(c) Promote an inclusive curriculum, identify and challenge bias and stereotyping within the curriculum and in the School's culture;
(d) Commit to broadening their knowledge, confidence and inclusive behaviour by attending relevant training and accessing information from appropriate sources;
(e) Ensure that all visitors and contractors are aware of and comply with this policy.

## Giriş

Britaniya Beynəlxalq Məktəbləri Şurası (COBİS) və Beynəlxalq Məktəblər Şurası (CİS) kimi ABC də məktəb daxilində və ümumiyyətlə cəmiyyətdə bərabərliyin, müxtəliflyin və inkluzivliyin (BMİ) sadiq dəstəkçisi olaraq çıxış edir.

ABC ölkəmizin adət-ənənəsi və qanunlarına uyğun olaraq müxtəlifliyi təbliğ edir və Azərbaycan Respublikasının Konstitusiyası qaydalarına uyğun olaraq fəaliyyət göstərir. Bu konstitusiyanın 25-ci maddəsinin 3-cü bəndinə əsasən - *Dövlət irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir.*

Ayrı-seçkilik və irqçiliyin aradan qaldırılması, bərabərliyin, müxtəlifliyin və inklüzivliyin təşviqi üçün yalnız siyasət və proseslərin mövcud olması kifayət deyil. Bunun üçün bu sadalananların yolverilməz olduğunu qəbul edən bir mədəniyyət formalaşdırılmalıdır. Biz gənclərimizi müxtəlif cəmiyyətlərin və fərqli perspektivlərin əks olunduğu geniş kurrikulum əsasında və güclü müəllim qayğısı vasitəsilə təlim-tərbiyə edirik. ABC-nin fundamental prinsiplərindən biri hər kəs üçün fərqli, təhlükəsiz və qarşılıqlı hörmətin mövcüd olduğu mühitin yaradılmasıdır. ABC inklüziv məktəb olmaq və müxtəlif təbəqə və cəmiyyətlərdən olan şagirdlərə və işçi heyətinə dəstək olmaq ideyasına hər zaman sadiqdir. Hər kəsin inkişaf edə bilməsi və öz potensialını tam şəkildə nümayiş etdirə bilməsi üçün məktəbin fəaliyyətində inklüzivliyin və bərabər imkanların təmin edilməsi vacibdir.

Bu siyasət valideynlər də daxil olmaqla həm hazırkı, həm də gələcək məktəb icması üzvlərinə aiddir.

Məktəbimiz diskriminasiya və ayrı seçkiliyin hər hansı bir formada təzahürünə qarşıdır. Məktəb tərəfindən insanların **yaş, əlillik, dil, din, irq, cinsiyyət, hamiləlik və analıq, etnik və ya siyasi mənsubiyyət, xidmət statusu** kimi mədəni hüquq və azadlıqları qorunur.

Məktəbimiz, bütün fəaliyyətlərində bərabərlik, müxtəliflik və inkluzivliyin (BMİ) təminatçısı olaraq aşağıdakıların həyata keçiriləcəyinə nəzarət edəcək:

- Məktəb cəmiyyətinin bütün üzvlərinə bərabərlik, müxtəliflik və inkluzivliyin (BMİ) təminatçısı olduğumuzu aşılamaq;
- Məktəb heyətinin və şagirdlərin bu siyasətin məqsədləri ilə tanış edilməsini təmin etmək;
- Məktəbin qərar qəbuletmə, siyasət və prosedurlarının monitorinqi, dəyərləndirilməsi və inkişafını təmin etmək;
- Bütün iddiaları ciddi şəkildə araşdırmaqla məktəbdə diskriminasiyanın qəbul edilməyəcəyini əyani olaraq nümayiş etdirmək.

## Diskriminasiya (ayrı-seçkilik)

Diskriminasiya (ayrı-seçkilik) aşağıdakı formalarda təzahür edə bilər:

(f) **Birbaşa diskriminasiya (ayrı-seçkilik)** – bir şəxsə (yaxud onun ailə üzvünə) hazırda mövcud olan və ya olması güman edilən qorunma xüsusiyyətlərinə görə başqalarına nisbətən daha pis rəftar olunan zaman baş verir.

(g) **Dolayı diskriminasiya (ayrı-seçkilik)** – müəyyən qorunma xüsusiyyətlərinə sahib olduqları üçün insanların daha əlverişsiz vəziyyətə gətirilməsinə səbəb olan müddəaların kriteriyaların və təcrübələrin tətbiq edildiyi vaxt baş verir. Belə təcrübələr qanuni məqsədlərə nail olmağın düzgün yolu kimi əsaslandırıla bilməz.

(h) **Viktimizasiya (hədəf seçmək)** – bir şəxs hüquq bərabərliyi haqqında qanuna müvafiq olaraq öz hüquqlarından istifadə etdikdən sonra (və ya istifadə edəcəyini bəyan etdikdə) ona qarşı daha sərt rəftar olunduqda baş verir. Həmin şəxsi dəstəkləyən (və ya dəstəkləyəcəyini bildirən digər şəxsin sıxışdırılması da bura daxildir.

(i) **Təcavüz** – bir şəxsin qorunma xüsusiyyətləri səbəbindən həmin fərdin ləyaqətini alçaldan, düşmən və ya təhqiredici mühit yaratmaq məqsədi daşıyan arzuolunmaz davranış kimi müəyyən edilir.

(j) **Əlilliyə görə diskriminasiyası (ayrı-seçkilik)** – açıq-aşkar və ya dolayısıyla aparılan ayrı-seçkilik, əlilliyi olan şəxsə qarşı edilən hər hansı bir ədalətsiz hərəkət və ya əlilliyin yaratdığı əlverişsiz şəraiti yaxşılaşdırmaq üçün heç bir tədbirin görülməməsi kimi müəyyən edilir.

## Məqsəd və dəyərlər

Bu siyasətin məqsədi və ümumilikdə məktəbin əxlaqi dəyərləri aşağıdakıları özündə ehtiva edir:

- Müəyyən qorunma xüsusiyyətlərinin olması səbəbilə qeyri-qanuni ayrı-seçkiliyə yol verməmək;
- Öyrənmə məhdudiyyəti və ya xüsusi təhsil ehtiyacı olan şəxslərin zorakılıq və qeyri-qanuni yolla ayrı-seçkiliyə məruz qalmasına yol verməmək;
- Məktəb icmasının bütün üzvləri üçün bərabər imkanlar təmin etmək;
- Uşaqların inkişaf edə biləcəyi təhlükəsiz mühitin yaradılması və hər bir uşağın dəyərli olması və təhsil mühitinin təhlükəsizliyi prinsiplərinin həyata keçirilməsini təmin etmək;
- Hər bir kəsin özünü dəyərli və olduqları yerə aid olması hisslərini aşılayan təlim-tərbiyə mühitini təmin etmək;
- Şagirdlərimizi bir fərd kimi öz yerini tuta biləcəyi yerli, regional, milli və beynəlxalq səviyyədə müxtəlif qlobal və inklüziv cəmiyyətlərdə həyata hazırlamaq;
- Bizim bərabərlik və müxtəliflik dəyərlərimizin valideynlər tərəfindən qəbul edilməsi və onların bu yöndə verdikləri töhvələri dəyərləndirmək;
- Azərbaycanda və qlobal cəmiyyətimizdə mövcud olan müxtəlifliklər haqqında pozitiv məzmunlu məlumatın və nümunələrin yayılmasını təmin etmək;

- Azərbaycanda və qlobal cəmiyyətimizdə mövcud olan müxtəlifliklər haqqında pozitiv məzmunlu məlumatın yayılmasını təmin etmək;

- Ayrı-seçkilik cəhdlərinə qarşı aktiv mübarizə aparmaq və məktəb cəmiyyətinin bu mübarizə ilə bağlı əldə olunan təcrübələrdən nəticə çıxarmalarını təmin etmək;
- İnkluzivliyi bütün fəaliyyətlərimizdə əks etdirmək;

Sadalanan məqsədlərə çatmaq üçün aşağıdakı tədbirlər görüləcək:

- Bütün müvafiq təkmilləşdirmə planları, siyasət və prosedurlarının hazırlanması, yenidən baxılması, qiymətləndirilməsi prosesinə, uyğun olduğu təqdirdə, məktəb icmasını bütün uzvlərinin iştirakını təmin edəcəyik;
- Məktəbin siyasətlərini dərc edərək məktəb icmasının bütün üzvləri ilə paylaşacayıq;
- Şagirdlərdən hər hansı birinin potensial əlverişsiz vəziyyətlərə düşməsinin qarşısını almaq məqsədilə məlumat (məs. qəbul prosesi və imtahan nəticələri üzrə verilənlər bazası) toplayıb təhlil edəcəyik;
- Şagirdlərin müxtəlif ehtiyaclarını və öyrənmə üslublarını təmin etməklə təlim prosesi üçün potensial maneələri aradan qaldıracağıq;
- Bərabərlik və müxtəlifliyin daha geniş əhatə olunduğu kurrikulumun tətbiq edilməsini təmin edəcəyik;
- Ayrı-seçkilik yaradan və təhqiramiz davranışlara 0-dözümlülük siyasətini tətbiq edəcəyik;
- İnkluziv təcrübənin əldə edilməsi, yayılması və dəstəklənməsi işində ailələr və daha geniş cəmiyyətin üzvləri ilə əməkdaşlıq edəcəyik və ayrı-seçkilik problemini həll edəcəyik.

## Məktəbə Qəbul Prosesi

Bu siyasətə və məktəbə qəbul qaydalarına uyğun olaraq daxil olan hər bir müraciətə bərabər və ədalətli şəkildə yanaşılır. Məktəb bütün müraciətlərə açıqdır və müraciət edənlərin qorunan xüsusiyyətlərindən asılı olmayaraq bütün şagirdləri məktəbə qəbul edir.

Valideynlər qeydiyyat formasını doldurarkən övladının Məktəb tərəfindən verilən təhsildə tam iştirak etmək qabiliyyətinə təsir edə biləcək hər hansı xüsusi hallar (məs. öyrənməyə dəstək ehtiyacları) barədə Məktəbə məlumat verməlidir. Müvafiq uygunlaşdırma vasitələri nəzərdən keçirildikdən sonra Məktəb şagirdin ehtiyaclarını adekvat şəkildə təmin edə və ya ödəyə bilməyəcəyi halda həmin şagird məktəbə qəbul edilməyəcək.

Məktəb ədalətlilik, təhlükəsizlik və rifah üçün qanunvericilik çərçivəsində öz öhdəliklərinə uyğun olaraq, hər hansı qorunan xüsusiyyətlərindən asılı olmayaraq, bütün tələbələrə təhsil xidmətlərindən, o cümlədən bütün imtiyazlardan, xidmətlərdən və imkanlardan istifadə imkanı verir.

Məktəb hər hansı bir qorunan xüsusiyyətlərinə görə şagirdə qarşı ayrı-seşkilik etməyəcək, onu kənarlaşdırmayacaq və hər hansı digər əlverişsiz vəziyyətə salmayacaq.

Məktəb digər dinlərin, irqlərin və mədəniyyətlərin başa düşülməsi və dəyər verilməsini təşviq etmək üçün kurrikulum, görüşlər, PSHE proqramı və xarici məruzəçilərdən istifadə edərək şagirdləri multikultural və anti-irqçi mühitdə maarifləndirməyə çalışacaq.

Məktəbə məlumdur ki, ayrı-seçkilik, bilərək olunub-olunmamasından asılı olmayaraq, birbaşa, dolayı və ya əlillik səbəbindən ola bilər. İstənilən halda təqib və zorakılıq yolverilməzdir və bu kimi hallar Məktəbin Davranış qaydalarına (Kodeksinə) uyğun olaraq həll olunacaq.

Məktəb:

- bütün uşaqların ehtiyaclarını ödəməyə çalışacaq və yuxarıda sadalanmış qorunan xüsusiyyətlərdən hər hansı birinə əsaslanan qanunsuz ayrı-seçkiliyin olmamasına əmin olacaq;
- xüsusi təhsil ehtiyacları (və ya Təhsil, Sağlamlıq və Təhsil planı) olan şagirdlərin ehtiyac duyduqları təhsil və sosial dəstəyi almalarını təmin edəcək;
- müxtəlif mənşəli şagirdlərin qəbulunu təmin edəcək və onların müvəffəqiyyətini izləyəcək;
- şagirdlər, inzibati heyət və valideynlər tərəfindən ayrı-seçkilik hərəkətlərinin qarşısını alacaq;
- bütün şagirdlərə kurrikulumun bütün sahələrinə, o cümlədən dərsdənkənar fəaliyyətlərin tam spektrində iştirak etmək imkanını təmin edəcək;
- bütün işçilərin bərabər imkanlar yaratmaq sahəsində öz məsuliyyətini dərk etmələrini və onların müvafiq təlim/treninq keçməsini təmin edəcək;
- məktəbdə ayrı-seçkiliyə qarşı mübarizə aparmaq və qarşısını almaq üçün lazım gəldikdə valideynlər və başqa qurumlarla işləyəcək;
- inklüziv təcrübələrin effektivliyini, monitorinqini və qiymətləndirilməsini təmin edəcək.

Məktəbimiz dünyəvi və inkluzivdir. Biz Azərbaycanda kök salmış mədəniyyətlərə, inanc və adət-ənənələrə hörmətlə yanaşır, fərdlərin şəxsi azadlıqlarını, din və inanc, yaxud da hər hansı dinə rəğbət bəsləməsini anlayışla qəbul edirik.

## Əsaslı Düzəlişlər

Məktəb əlilliyi olmayan şagirdlərlə müqayisədə əlilliyi olan şagirdlərin əlverişsiz şəraitdə olmamalarını təmin etmək üçün davamlı olaraq əsaslı düzəlişlər edir. Məktəb əlil uşaqları üçün hansı əsaslı düzəlişlər edə biləcəyi barədə məlumat verəcək və valideynlərlə məsləhətləşəcək. Məktəb şagirdin əlilliyini və digər məsələləri, məs. məktəbdə mövcud olan resurslar baxımından köməkçi vasitələr və xidmətlərə dair bütün təklifləri diqqətlə nəzərdən keçirəcək. Əsaslı düzəlişlər etmək məktəbin öhdəliyidir (hər bir işə ayrılıqda baxılır).

## Məsuliyyətlər

İdarə Heyətinin məsuliyyətlərinə aiddir:

(e) Məktəbin işçi heyətinin inkluziv davranış və praktikanın tətbiqində nümunəvi çıxışını təmin etmək
(f) Məktəbin öz hüquq bərabərliyi prinsiplərinə riayət etməsini təmin etmək
(g) Məktəbin öz siyasət və prosedurlarının prinsiplərə uyğun şəkildə və bərabərlik hüquqlarının daha geniş şəkildə tətbiqini təmin etmək
(h) Məktəb siyasət və qanunlarının pozulması halı müşahidə olunduqda, onun həllində məktəb direktoru ilə birgə işləmək

## Məktəb Direktoru və Rəhbər Heyət Komandası

Məktəb Direktoru və Rəhbər Heyət Komandasının öhdəliklərinə aiddir:

(c) Bu siyasətin norma və tələblərinin effektiv şəkildə həyata keçirilməsinə nəzarət;
(d) Bərabərlik və müxtəliflik anlayışları zəminində bütün işçi komandasının yetərli məlumata sahib olduğunu və lazımi təlimlərin verilməsinə nəzarət;
(d) Kimliyindən asılı olmayaraq, məktəbin işçi heyəti, təhsilalanlar, valideyn və ya ziyarətçilər tərəfindən törədilmiş diskriminasiya və ya ayrı-seçkilik hərəkətlərinin cəzasız qalmaması və bu kimi halların aradan qaldırılmasında yaxından iştirak.

## Məktəbin İşçi Heyəti

Məktəbin işçi heyətinin öhdəliklərinə aiddir:

(a) İnklüziv davranışın pozitiv şəkildə təbliğ olunması;
(b) Ayrı-seçkiliyin, viktimizasiyanın və zorakılığın tətbiqinin istənilən formalarına qarşı fəal şəkildə etiraz olunması;
(c) İnklüziv kurrikulumun təşviqi və Məktəbin kurrikulum və mədəniyyətində hər hansı qeyri-obyektivliyin və stereotiplərin aşkarlanması;
(d) Müvafiq təlimlərdə iştirak etmək və uyğun mənbələrdən məlumatlar əldə etməklə, bilik, özgüvən və inklüziv davranış normalarını genişləndirmək;
(e) Bütün ziyarətçilərin və podratçıların bu siyasət və təlimatlardan xəbərdar olması, həmçinin onlara riayət olunmasının təmin olunması.